# *Allahşükür PAŞAZADƏ:* "Müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır"

Xəbər verdiyimiz kimi, Bəhreyn Kralı Həməd bin İsa Əl Xəlifənin himayədarlığı ilə fevralın 19-da Bəhreyn krallığının paytaxtı Manamada "Bir ümmət, bir tale" şüarı altında İslamdaxili Dialoq Konfransı öz işinə başlayıb.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Mətbuat Xidmətindən AZƏRTAC-a bildirilib ki, Əzhər Əl-Şərif, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurası və Müsəlman Ağsaqqalları Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransda İslam dünyasının tanınmış sünni və şiə məzhəblərinin üləmaları, mərceyi-təqlidləri, alim və mütəfəkkirləri və İslam dininin görkəmli xadimləri iştirak edirlər.

QMİ sədri, Müsəlman Ağsaqqalları Şurasının üzvü şeyxülislam Allahşükür Paşazadə Bəhreyn Kralı Əlahəzrət Həməd bin İsa Əl Xəlifə ilə konfrans şərəfinə qəbul mərasimində görüşüb. O, görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Krala çatdırıb.

Bəhreyn Konfransının açılış mərasimində Malayziyanın Baş naziri Ənvər İbrahim, Qazaxıstan Parlamenti Senatının sədri Maulen Aşimbayev, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hüseyn Brahim Taha, Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə, Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Məhəmməd Əbdülsəlam, İslam Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Ekmələddin İhsanoğlu, müsəlman dünyasının bir sıra görkəmli din, dövlət və ictimai xadimləri çıxış ediblər.



Müsəlman dünyası və bütövlükdə bəşəriyyətin gələcəyi naminə qarşılıqlı anlaşma mühitində dialoq məramı ilə keçirilən konfransda məruzə ilə çıxış edən şeyxülislam A.Paşazadə islamdaxili həmrəyliyin təmin olunması naminə İslam-İslam dialoqu, məzhəblərarası anlaşma istiqamətində vəsatiyyənin tətbiqi, müqəddəs dinimizin mötədil dəyərlərinə istinad yönündə birgə səylərini yüksək dəyərləndirib. QMİ sədri Azərbaycanda İslamdaxili dialoqun uğurla qurulduğunu və real müsbət nəticələr verdiyini qürurla vurğulayıb, ölkəmizin məzhəblərarası anlaşma sahəsində örnək təcrübəsi barədə Bəhreyn forumunun iştirakçılarına məlumat verərək deyib: "Vətənim Azərbaycan tarixən müxtəlif məzhəblərin mövcud olduğu ölkədir. Bu gün müstəqil Azərbaycanın timsalında məzhəblərarası anlaşma və qardaşlığın nadir nümunəsi yaşanmaqdadır. Dünyada analoqu olmayan haldır ki, dini mərkəzin fətvasına əsasən vahid təqvim üzrə Azərbaycan məscidlərində azanlar bir vaxtda verilir, məscidlərdə eyni vaxtda birgə namaz qılınır, eyni imama iqtida edilir. Şiələr və sünnilər dini bayram və mərasimlərdə, Məhərrəmlik dönəmində, Aşura təziyələrində bərabər iştirak edir, mübarək Qurban bayramını və Ramazan ayını vahid təqvim üzrə eyni günlərdə keçirirlər. İslam müqəddəslərinin, səhabələrin təhqir edilməsini dövlətimiz nifrət nitqi olaraq qanunla qadağan edib. Bu müdrik dövlətçilik siyasəti xalqımızın Ulu Öndəri Heydər Əliyevin irsidir və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev islami həmrəylik ideyalarının dünya miqyasında fəal müdafiəçisi və beynəlxalq müstəvidə islamofobiya əleyhinə daim qətiyyətlə çıxış edən siyasi liderdir".

Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində Əl-Əzhəri Şərifin Şeyxi, Böyük İmam Əhməd ət-Tayyib, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibi Hüseyn Brahim Taha, Bəhreynin İslam Məsələləri üzrə Ali Şurasının sədri Əbdül Rəhman bin Məhəmməd bin Rəşid əl-Xəlifə və digər şəxslər ilə görüşlər keçirib.

Konfrans işini davam etdirir.

Azərbaycan.- 2025.- 21 fevral (№ 39).- S.4.